

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (23.196)

16 fevral 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Sahibkarlığın inkişafı muxtar respublika iqtisadiyyatına öz töhfəsini verir

*Sahibkarlığın inkişafı iqtisadi tərəqqinin əsas meyarlarındandır. Çünki istənilən bölgənin tərəqqisi sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. İllərdir, dünya təcrübəsi də göstərir ki, bazar iqtisadiyyatı şəraitində bu sahəni inkişaf etdirmədən heç bir tərəqqidən, yeniliklərin tətbiqindən, ümumilikdə isə hərtərəfli inkişafdan danışmaq mümkün deyil. Buna görədir ki, ümummilli lider Heydər Əliyev deyirdi:* ***“Sahibkarların səmərəli işləməsi Azərbaycanın iqtisadi inkişafını təmin edən amildir. Ona görə də biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq”.***

Təbii ki, ulu öndərimizin sahibkarlığa bu cür yanaşması ölkəmizdə özəl sektorun formalaşmasına böyük təsir göstərmişdir. Bazar iqtisadiyyatına keçidin uğurla başa çatdırılması sahibkarlıq subyektlərinin sayının daha da artmasına gətirib çıxarmış, nəticədə, milli iqtisadiyyatda özəl sektorun payı xeyli yüksəlmişdir. Bu yüksəlişi təmin edən əsas meyarlardan biri də dövlətin özəl sektorun inkişaf etdirilməsinə göstərdiyi diqqət və işgüzar mühitin yaradılmasıdır.

Naxçıvan Muxtar Respublikasında da əldə edilmiş iqtisadi nailiyyətlərin təməlində həm də dövlət-sahibkar münasibətlərinin düzgün istiqamətdə qurulması dayanır. Ənənəvi olaraq hər il yerli sahibkarlarla görüşən, onların cəmiyyətin inkişafındakı rolunu yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Sahibkarlar cəmiyyətin ən təşəbbüskar, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalatda tətbiq edən sosial təbəqəsidir. Cəmiyyətin sosial təbəqəsi kimi onlar yaradılmış şəraitdən, maliyyə imkanlarından, texnikadan, torpaqdan istifadə edirlər. Bu gün dövlət sahibkarlığın inkişafı üçün hər cür dəstəyi göstərir. Bundan sonra da göstərəcəkdir. Sahibkarlar da, öz növbəsində, dövlətin və cəmiyyətin inkişafı üçün öz dəstəyini göstərməlidirlər. Hər bir sahibkar çalışmalıdır ki, əhali məşğulluğuna, yeni iş yerlərinin açılmasına, keyfiyyətli məhsul istehsalına, daxili bazarın təminatına, muxtar respublikanın ixrac potensialının daha da gücləndirilməsinə öz töhfəsini versin. Qeyd olunan vəzifələrin icrası o halda mümkündür ki, sahibkarlıq fəaliyyətində dövlət-işçi-sahibkar münasibətləri düzgün qurulsun”.***



Qeyd etmək lazımdır ki, ötən əsrin sonlarından blokada vəziyyətinə salınmış muxtar respublikada iqtisadi sektorun və bu sektorun əsasını təşkil edən özəl bölmənin inkişaf etdirilməsi asan olmamışdır. Ancaq son illərdə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlət tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər Naxçıvanın blokada şəraitində belə, necə inkişaf edəcəyinin yolunu göstərdi. Yerli xammal və enerji resurslarının, əhali ehtiyatlarının və ixtisaslı kadrların gücündən maksimum istifadə olunması ilə iqtisadi layihələrə start verilməsi muxtar respublika iqtisadiyyatının inkişaf etdirilməsində atılmış ilkin addımlar idi. Digər tərəfdən dövlətin qarşısında duran başqa bir vəzifə muxtar respublikaya investisiya axınını sürətləndirmək, yerli istehsal müəssisələrinin hesabına idxaldan asılılığı azaltmaq idi. Və ötən dövrdə bütün bu işlər məhz dövlət-sahibkar işbirliyinin sayəsində mümkün olmuşdur.

Sevindirici haldır ki, bu gün muxtar respublikada sahibkarların fəaliyyəti üçün yaradılmış hərtərəfli şərait, əlverişli biznes və investisiya mühitinin nəticəsində 2018-ci ildə ümumi daxili məhsul istehsalı 2 milyard 773 milyon manatdan artıq olmuşdur. Bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata çatmışdır. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlə sənaye tutmuş və maddi istehsalın payı 58, 6 faiz təşkil etmişdir. İnkişaf parametrlərinin müxtəlif sahələr üzərində artımına diqqət etsək, görərik ki, 2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,4 faiz, nəqliyyat sektorunda yük daşınması 1,9 faiz, informasiya və rabitə xidmətləri 3,3 faiz, o cümlədən mobil rabitə xidməti 2 faiz artmışdır.

İstehsalçı ölkə və ya məkan üçün göstərici olaraq sənaye amili əsas götürülür. Diqqət etsək, görərik ki, muxtar respublikada müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması bu sahənin sürətli inkişafına təkan vermişdir. Bunun nəticəsidir ki, hər il sənaye məhsulu ümumi daxili məhsul istehsalında əsas yeri tutur. 2018-ci ildə muxtar respublikada 990 milyon 67 min manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur. Bu da əvvəlki ildəki göstəricidən 1,3 faiz çoxdur. İstehsal olunan sənaye məhsulunda özəl sektorun payı 94,7 faiz təşkil etmişdir.

Qeyd edək ki, bu gün sahibkarlıq subyektlərində çalışanlar məşğul əhalinin 83 faizini təşkil edir. Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, naxçıvanlı sahibkarlar bu gün öz məhsulları ilə daxili bazarı təmin edir, eyni zamanda muxtar respublikadan Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Litva, Türkmənistan, Rusiya və İran kimi ölkələrə ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları ixrac edirlər. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur. İstehsal olunan müxtəlif adda məhsulların ixrac imkanlarının artmasının nəticəsidir ki, 2009-cu ildən muxtar respublikanın xarici ticarətində müsbət saldo qeydə alınır.



Qeyd etmək lazımdır ki, muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı üçün həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ildə muxtar respublikada sahibkarlara 13 milyon 790 min 800 manat kredit verilmişdir. Bu kreditlərdən 5 milyon 736 min 400 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 8 milyon 54 min 400 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövrdə 30 hüquqi və 2320 fiziki şəxs qeydiyyata alınmışdır.

Məlumatda göstərilir ki, 2018-ci ildə Naxçıvan şəhərində 6-cı Beynəlxalq “Caspian Energy Forumu”nun keçirilməsi muxtar respublikanın sahibkarlıq subyektlərinin tanıdılması və əlaqələrinin genişləndirilməsi baxımından çox əhəmiyyətli olmuşdur. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Bəli, sahibkarlığın inkişafının dəstəklənməsi muxtar respublikanın iqtisadi potensialını ildən-ilə artırmaqdadır. Digər tərəfdən bu, Naxçıvanda lazımi investisiya mühitinin formalaşmasının göstəricisidir. Dövlətin qayğısını daim öz üzərlərində hiss edən naxçıvanlı sahibkarlar muxtar respublika iqtisadiyyatına töhfələrini verməyə çalışırlar.

✍ **Səbuhi HƏSƏNOV**

---

## Daxili bazar keyfiyyətli istixana məhsulları ilə təmin olunur

*Əhalinin ilin bütün fəsillərində təzə tərəvəz məhsulları ilə təmin olunmasında yaradılmış istixanaların mühüm rolu vardır. İnsanların istehlak tələbatında geniş paya sahib olan bu məhsulların yetişdirilməsi həm daxili bazarın təmini, həm də idxaldan asılılığın aradan qaldırılmasına səbəb olur. Ölkəmizdə yaradılan əlverişli biznes mühiti bütün sahibkarlar kimi, “Naxçıvan Bağları” Məhdud Məsuliyyətli Cəmiyyətinin də fəaliyyətini genişləndirməyə imkan verib.*






2011-ci ildə dövlət maliyyə dəstəyi ilə istixana kompleksi yaradan müəssisə əhalinin keyfiyyətli tərəvəz məhsullarına olan tələbatının ödənilməsinə çalışır. Bu məqsədlə Sahibkarlığın İnkişafı Fondundan 3 milyon 250 min manat güzəştli kredit ayrılıb, 2 milyon manat özəl investisiya qoyulub. Bu maliyyə mənbələri hesabına müəssisədə Türkiyə, İspaniya, İsrail və İtaliya istehsalı olan yeni avadanlıqların və müasir texnologiyanın tətbiqinə, müəssisənin istehsal gücünün və rəqabətqabiliyyətliliyinin artırılmasına şərait yaranıb. Göstərilən dövlət qayğısından bəhrələnən müəssisə ilkin mərhələdə 12 min kvadratmetr sahədən ibarət olan istixana kompleksini genişləndirərək 60 min kvadratmetrə, illik məhsul istehsalını isə intensiv üsullardan istifadə olunmaqla 250 tondan 1200 tona yüksəldib. Bundan əlavə, “Naxçıvan Bağları” MMC Kəngərli, Şahbuz, Ordubad rayonlarında 50 hektar açıq sahədə intensiv üsullarla tərəvəz və digər kənd təsərrüfatı bitkilərinin əkinini də həyata keçirir.

Muxtar respublikamızda istehsal olunan məhsulların ixracının stimullaşdırılması istiqamətində göstərilən qayğı müəssisənin ixrac imkanlarının artmasına şərait yaradıb. Hazırda mövcud istixana kompleksində istehsal olunan məhsullar muxtar respublika əhalisinin tələbatının ödənilməsi ilə yanaşı, Rusiya Federasiyasına da ixrac olunur. Gələcəkdə isə digər xarici ölkələrin bazarlarına çıxmaq da planlaşdırılır. Bütün bunlar əhalinin məşğulluğunun təmin edilməsinə, yeni iş yerlərinin açılmasına stimul verib. Belə ki, hazırda “Naxçıvan Bağları” MMC-də 51 nəfər daimi işlə təmin olunub.

“Naxçıvan bağları”nın təzə tərəvəzlərinə tələbat böyükdür. Bu da təsadüfi deyildir. Çünki digər yerli məhsullarımızda olduğu kimi, Naxçıvanda yetişən tərəvəzlərin də keyfiyyətinə bu torpağın zəngin mineralları, təmiz suyu və bol günəşli günləri də təsir edir.

---

## “Berlin Travel” Naxçıvan məhsulları haqqında video paylaşıb




Hər il ənənəvi olaraq Almaniyanın Berlin şəhərində keçirilən “Beynəlxalq yaşıl həftə” satış sərgisində nümayiş olunan ekoloji təmiz Naxçıvan məhsullarına dünyanın hər yerində maraq yaranmaqdadır. Bu yaxınlarda YouTube video hostinqində “Berlin Travel” adlı istifadəçi tərəfindən yarım milyona yaxın insanın ziyarət etdiyi bu sərgidə təklif olunan Naxçıvan məhsulları haqda maraqlı videomaterial yerləşdirilib. Videoda “Made in Azerbaijan” brendi altında sərgilənən Naxçıvan məhsulları arasında Naxçıvan duzu, Ordubad mürəbbələri, müxtəlif içkilər, alma sirkəsi, lokum, meyvə quruları və digər məhsullar görünməkdədir.

Qeyd edək ki, əsasən, kənd təsərrüfatı məhsullarının nümayiş etdirildiyi “Beynəlxalq yaşıl həftə” yüz ilə yaxın bir tarixə malikdir və cari ilin yanvarında keçirilən növbəti sərgidə də Naxçıvan Muxtar Respublikası təmsil olunub.

✍ **Əli CABBAROV**

*"Ailə təsərrüfatları ili" – 2019*

# Mütərəqqi təsərrüfat forması

*Muxtar respublikada dinamik sosial-iqtisadi inkişafa nail olunması həyatımızın hər bir sahəsində gözəçarpan uğurlar qazanılmasına stimul verib. İnsan amilinin ön planda olduğu diyarımızda məşğulluğun təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi sosial-iqtisadi inkişafın davamlı xarakter almasına şərait yaradıb.*

Son illərdə sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi, yeni emal və istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud obyektlərin isə fəaliyyətlərinin bərpa olunması və mütərəqqi təsərrüfat formalarının tətbiqi yeni iş yerlərinin yaradılmasına və bunun məntiqi nəticəsi kimi insanların məşğulluğuna müsbət təsirini göstərib.

Belə tədbirlər sırasında ailə təsərrüfatlarının yaradılması xüsusi qeyd olunmalıdır. O da vurğulanmalıdır ki, həmin təsərrüfatlara qayğı da unudulmayıb. Təsərrüfatların fəaliyyətində üzləşilən çətinliklərin aradan qaldırılması, onlara metodik köməkliklərin göstərilməsi, maliyyə dəstəyinin təmin edilməsi, ailə təsərrüfatlarının məhsullarının təbliği və satışı üçün məqsədyönlü tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Bunun ifadəsidir ki, 2017-ci il noyabr ayının 18-də ilk dəfə olaraq Naxçıvanqalada "Ailə təsərrüfatları məhsulları" festivalı keçirilib. İkinci belə tədbir ötən il reallaşdırılıb.

Məlumat üçün onu da bildirək ki, bu gün muxtar respublikada müxtəlif profilli 800-dən artıq ailə təsərrüfatı mövcuddur.

2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması belə təsərrüfatlara böyük önəm verilməsinin ifadəsi kimi dəyərləndirilir.

Bu günlərdə Şərur rayonuna getməkdə məqsədimiz bu bölgədə yaradılmış ailə təsərrüfatlarının fəaliyyəti ilə maraqlanmaq idi. Qeyd edək ki, bu gün rayonda 84 ailə təsərrüfatı var. Əkinçiliyin, maldarlığın, arıçılığın, meyvəçiliyin və digər sahələrin inkişaf etdirildiyi rayonun məhsuldar torpaq sahələri, bol suyu var. Bölgədə yaradılmış zəngin təsərrüfatçılıq ənənələrini yaşadan torpağa bağlı insanlar onlara göstərilən qayğıdan ürəkdolusu danışdılar.

Rayonun Cəlilkəndində yaşayan Sənan Qasımzadə gəncdir. 27 yaşı var. İxtisasca müəllimdir. İki ildir ki, 6 nəfərdən ibarət ailə təsərrüfatı yaradıb. Keçənilki festivala 28 növdə mürəbbə, 22 növdə turşu, 16 növdə meyvə qurusu, 16 növdə kompot, doşab, üzüm yarpağı, cemlər çıxarıb. Bu məhsulları özünün həyətyanı və pay torpağının bir hissəsindən istifadə etməklə hasilə gətirib, ehtiyac duyulan bəzi məhsulların xammalını rayonun digər torpaq mülkiyyətçilərindən alaraq emal edib. Payızda ona məxsus olan pay torpağının bir hissəsində şum qaldırıb, yazda yerli sortlardan istifadə edərək yeni meyvə bağı salacaq. Bu isə imkan verəcək ki, istifadə etdiyi xammalı öz təsərrüfatından



götürsün, əlavə vəsait xərcləməsin.

Təsərrüfatın üzvü Əli Qasımov deyir ki, istehsal etdiyimiz məhsullar hər bir ailənin mətbəxində həmişə ehtiyac duyulan məhsullardır. Yəni bu məhsulları hər bir evdə hazırlamaq olar.

Sənanla söhbətdə bildirdi ki, istehsal etdikləri məhsulları bəzi iaşə müəssisələrinə satır, bir neçə ildir ki, Bakı şəhərindən də sifarişlər alır. Deyir ki, Naxçıvanda istehsal olunan məhsullara böyük tələbat var. Çünki diyarımızda yetişdirilən məhsullar öz dadı və tamı ilə seçilir. Naxçıvan şəhərində keçirilən yeni il yarmarkasında da xeyli məhsul satdığını bildirən Sənan söhbətimizin sonunda ailə təsərrüfatlarının fəaliyyətinə göstərilən qayğıya görə minnətdarlığını ifadə etdi. Onu da diqqətimizə çatdırdı ki, belə qayğı və 2018-ci ildə keçirilən festivalda III yerin sahibi olması onu daha da ruhlandırıb.

Naxçıvanqalada "Ailə təsərrüfatları məhsulları" festivalında I yerin sahibi rayonun Çərçiboğan kənd sakini Müqbil Zamanov olub. O, festivala, ümumilikdə, 685 butulka olmaqla, 19 adda meyvə arağı, 2 adda çaxır və alma sirkəsi çıxarmışdı.

Müqbil deyir ki, 2010-cu ildən bu işlə məşğuldur. 25 növdə araq istehsal edir. Bunun üçün müxtəlif ədəbiyyatlar oxuyur. Söhbətindən də hiss etdik ki, Müqbil bu sahədə mükəmməl biliyə malikdir.

Öyrəndik ki, araq istehsalı üçün ayırdığı sahə kiçikdir. Festivaldan sonra ona hərtərəfli şəraiti olan sex tikilməsi üçün icazə, 5 min kvadratmetr torpaq sahəsi verilib. Payızda bu torpağın bir hissəsində qızılgül əkib, yazda isə qara qarağat əkməyi planlaşdırıb. Həmin məhsullardan, həmçinin dağ otlarından araq çəkmək istəyir.

Onu da öyrəndik ki, 4 nəfərdən ibarət olan ailə təsərrüfatında bu il çox böyük müalicə əhəmiyyəti olan sarımsaqla limonun və bananın ekstraktı hazırlanıb.

Müqbil deyir ki, ailə təsərrüfatına belə qayğı gələcəkdə həmin təsərrüfatın ailə-fermer təsərrüfatına çevriləcəyinə və daha çox insanın daimi işlə təmin ediləcəyinə onda böyük



inam yaradıb.

Satış üçün heç bir çətinliyi olmayan Müqbil diqqətimizə çatdırdı ki, muxtar respublikamızda bitən hər bir meyvənin, giləmeyvənin, qarpızın, qovunun arağını çəkmək mümkündür. Onların hər birindən müalicə məqsədilə istifadə çox xeyirlidir. Ancaq həmin araqların hazırlanma və çəkilmə üsulları var. Bunlara mütləq əməl olunmalıdır ki, bol məhsul əldə edilsin və istehsal olunan məhsul insan orqanizminə mənfi təsir göstərməsin.

Həmsöhbətim ailə təsərrüfatlarında yetişdirilən məhsulların təbliği və satışında festivalların böyük əhəmiyyəti olduğunu diqqətə çatdırdı və minnətdarlığını bildirdi.

Aşağı Aralıq kəndində yaşayan Fərqanə Muxtarova da ailə təsərrüfatlarının üstünlüklərindən danışdı. Bildirdi ki, bu həm insanların məşğulluğu, həm də yaxşı güngüzəran qurmaq üçün ən gözəl vasitədir. Qalır ki, zəhmət çəkəsən. Zəhmət çəkənin isə heç vaxt əməyi itmir, öz bəhrəsini verir.

Həmsöhbətimiz də festivalda iştirak edib. O, 40 adda dərman bitkisinin faydalarını öyrənib, onları toplayır. 16 növdə dərman bitkisini festivala çıxarıb. Üzərlik, balotu, pürk, ayıqulağı, boymadərən, dazotu, qantəpər və başqa müalicəvi otlara festivalda böyük maraq göstərilib.

Fərqanə Muxtarovadan bu məhsulları haradan topladıqlarını soruşduqda bildirdi ki, muxtar respublikamızın hər bir bölgəsində belə otlar bitir. Həmin otları toplamaq qaydalarını da bilməlisən. Hansı otu günün hansı vaxtında toplamağı bacarmalısan. Əks halda həmin bitkilərin tərkibindəki müalicə əhəmiyyəti yarıbayarı azalır ki, bunun da insan orqanizminə təsiri aşağı düşür.

Onu da öyrəndik ki, o, festivala həm də badımcan kababı, kələm turşusu, zirinc və həmərsin şirələri, tut doşabı, üzüm yarpağı və digər məhsullar çıxarıb. Həmin məhsullar özünə geniş alıcı qüvvəsi toplayıb.

Fərqanə Muxtarova belə tədbirin təşkilinin ailə təsərrüfatları tərəfindən yüksək dəyərləndirildiyini, bunun onlara göstərilən böyük qayğı olduğunu bildirdi.

Ailə təsərrüfatlarının başçıları və üzvləri ilə söhbətdən öyrəndik ki, məşğul olduqları müxtəlif təsərrüfat sahələrindən əldə etdikləri gəlir onların ailə büdcələrinə müsbət təsir göstərir, insanların məşğulluğu təmin olunur. Həm də bununla təsərrüfat sahibləri muxtar respublikanın daxili bazarına öz töhfələrini verirlər. Beləliklə, diyarımızda muxtar respublikada yabanı halda bitən və mədəni yetişdirilən məhsul itib-batmır, son halda insanlar üçün lazımi qida vasitələrinə çevrilir.

Onların satışının, təbliğinin təşkilində isə "Ailə təsərrüfatları məhsulları" festivalı böyük əhəmiyyətə malikdir və həm təsərrüfat üzvləri, həm də muxtar respublika sakinləri tərəfindən yüksək dəyərləndirilir. Yeri gəlmişkən onu da qeyd edək ki, adıçəkilən, festivalda qonşu Türkiyə və İrandan, ölkəmizin digər bölgələrindən qədim diyarımıza qonaq gəlmiş insanların da Naxçıvanda emal və istehsal edilən məhsullara maraq göstərməsi qəlbimizi qürur hissi ilə doldurmuşdur...

✍ **Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

# "Şərur broyler" daxili bazarın yüksəkkeyfiyyətli quş əti ilə təmin olunmasına öz töhfəsini verir

Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Ona görə də sahibkarlığın inkişafına geniş meydan verilməsi və bu sahəyə dövlət yardımının ilbəil artırılması böyük əhəmiyyətə malikdir. Son illərdə diyarımızda aparılan meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumlarının artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin fəaliyyətə başlaması sahibkarlığın da sürətli inkişafına əlverişli şərait yaradıb. Görülən işlər isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Bütün bunlar da muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin genişləndirilməsini, yeni müəssisələrin və iş yerlərinin açılmasını təmin edib. Belə istehsal müəssisələrindən biri də Şərur rayonunun Zeyvə kəndində fəaliyyət göstərən quşçuluq təsərrüfatıdır.

Bu günlərdə həmin müəssisədə olduq. "Məmmədtağı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Məmməd Tağıyev bildirdi ki, müəssisə 7 hektarlıq geniş bir ərazini əhatə edir. Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə istehsal sahəsində Türkiyə, İtaliya mənşəli müasir avadanlıqlar quraşdırılıb. Eyni zamanda avtomatik rejimdə işləyən havalandırma və istilik



sistemləri qoşulub, enerji kəsintisinin qarşısını almaq üçün ayrıca generator qoyulub. Müəyyən olunan qrafikə əsasən istehsal sahələrində dezinfeksiya işləri aparılır. Müəssisədə ayrıca kəsim sexi, ümumi tutumu 150 ton olan 2 soyuducu anbar, laboratoriya, yem anbarı, yeməkxana, baytar və digər iş otaqları var.

Sahibkarın sözlərinə görə, müəssisədə yaradılan şərait 45-50 gün ərzində 150 ton quş əti istehsal etməyə imkan verir. Toyuq bəsləmə sexi hər mövsümdə yuyulub təmizlənir, dezinfeksiya olunur, divarlar əhənglə ağardılır. Bəslənəcək ətlik cücələri yetişdirmək üçün hazırlanır. Sexdə təmizlik və səliqə-sahman, gigiyenik qaydalara əməl olunduğu elə ilk baxışdan nəzərə çarpırdı.

Müəssisədə 10-dan çox çeşiddə məhsul istehsal olunur. Hazır məhsullar olan bölümdə satışa çıxarılacaq quş ətinin saxlandığı şəraitlə maraqlandıq. Toyuqlar kəsilir, təmizlənir, yuyulur və 3 mərhələli soyuducudan keçirilir. Əvvəlcə toyuq əti soyuducuda 30-40 dəqiqə ərzində sıfır dərəcəyədək soyudulur, paketlənir, sonra digər soyuducu anbarda mənfi 40 dərəcədə 8 saat saxlanılır, sonuncu – üçüncü mərhələdə isə hazır məhsul başqa bir soyuducu anbara yerləşdirilir, burada mənfi 18 dərəcə temperaturda saxlanılır və satışa çıxarılır. Məhsulların üzərində tərkibi, saxlanma şəraiti, istehsal və son istifadə tarixi göstərilir.

İstehlakçılar tərəfindən bu məhsullara olan maraq get-gedə artmaqdadır. Bunu ticarət şəbəkələrindən, ayrı-ayrı şəxslərdən alınan sifarişlərdən də görmək olar. Belə ki, həmin məhsullar təkcə Şərur rayonunda deyil, Naxçıvan şəhərində də özünə xeyli sayda alıcı toplayıb. "Şərur broyler" ticarət nişanı ilə satışa çıxarılan məhsulların pərakəndə ticarət obyektlərinə çatdırılması üçün nəqliyyat vasitəsi də vardır.

Məmməd Tağıyev onu da deyir ki, gələcəkdə Zeyvə kəndindəki bələdiyyə torpaqlarından icarəyə götürüb quş yemi – arpa, buğda və qarğıdalı yetişdirəcəklər. Onların üyüdülməsi üçün dəyirman binasının da inşası yekunlaşıb.

Sahibkar onu da bildirdi ki, müəssisədə yumurtalıq toyuq saxlanılması istiqamətində dövlət dəstəyindən yararlanmaq üçün ötən günlərdə Sahibkarlığın İnkişafı Fonduna müraciət edib.

Müəssisə ilə tanışlığımızdan gəldiyimiz qənaət isə belə oldu ki, "Şərur broyler" muxtar respublikada əhalinin quş ətinə olan tələbatının ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına töhfəsini verməyə çalışır.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Keyfiyyətə nəzarət olunur

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 2019-cu ilin yanvar ayında yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamış, məhsulların 65 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmişdir.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 43 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 62 halda laboratoriya analizləri aparılmış və standartların tələblərinə uyğun olduğu müəyyən edilmiş, məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 36 müraciət operativ icra edilmişdir. Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 18 məktəbin bufetində, 6 digər təhsil müəssisəsinin bufet və yeməkxanasında və 10 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 10 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində yeni yaradılan 1 ailə təsərrüfatına 10 adda məhsulun etiket layihələrinin hazırlanmasına metodik köməklik göstərilmiş, Naxçıvan şəhərində fəaliyyət göstərən 13 satış obyektində ailə təsərrüfatı məhsullarının satışı bölməsi yaradılmışdır.

Dövlət müəssisə və təşkilatları tərəfindən mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınan ərzaq məhsullarının keyfiyyətinə nəzarət gücləndirilmiş, alkoqollu içkilər istehsal edən 4 müəssisədə arağın laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. 61 bərbərxanada maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 61 ictimai iaşə və xidmət sahəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, 13 təsərrüfat subyektində aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır.

Muxtar respublikanın Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 32 təsərrüfat subyektində müşahidə xarakterli təkrar monitorinqlər aparılmış, daxili bazar və gömrük-keçid məntəqələrində aparılan monitorinqlər zamanı idxal olunan 380 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 7 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti***

## Pakistanın “Daily Times” qəzeti Naxçıvan haqqında

***Pakistanda ingilis dilində nəşr edilən “Daily Times” qəzetində filologiya üzrə fəlsəfə doktoru Süsənbər Ağamalıyevanın “Cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası” adlı məqaləsi dərc edilib.***


Nakhchivan Autonomous Republic under the leadership of Mr Speaker Vasif Talibov

Daily Times

Məqalədə Naxçıvan Muxtar Respublikası bəşər tarixində blokada şəraitində böyük iqtisadi, mədəni, təhsil və digər sahələrdə inkişafa nail olan, son onilliklərdə özünün intibah dövrünü yaşayan yeganə diyar kimi göstərilir. Müəllif 1995-ci ildən etibarən muxtar respublikada inkişaf və intibahın geniş vüsət aldığını xüsusi vurğulamaqla bərabər, 1995-2018-ci illərdə burada bütün sahələrdə böyük nailiyyətlər əldə olunduğu qeyd edir. Göstərilir ki, beş min ildən artıq tarixi yaşı olan Naxçıvanda son 23 il ərzində qazanılan uğur və nailiyyətlər muxtar respublika rəhbərinin Vətənə, xalqa və millətə təmənnasız sevgisi və tükənməz enerjisinin sayəsində əldə edilib.

Məqalədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“Vətənə məhəbbət olarsa, çətin iqtisadi şəraitdə belə böyük uğurların qazanılmasının mümkünlüyü”*** fikri önə çəkilərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun hələ 1996-cı ildə keçirilən iclaslardan birində söylədiyi ***“Blokada inkişafa maneə ola bilməz”*** fikrinin real nəticə verdiyi, son illər həyata keçirilən geniş quruculuq və abadlıq işləri aparılan doğru siyasətin, düzgün idarəçiliyin və Vətənə sonsuz məhəbbətin bəhrəsi kimi təqdim edilir. Müəllif yazır: “Naxçıvanda böyük səylə quruculuq işləri həyata keçirilir, yollar və körpülər tikilir, yeni istehsal sahələri yaradılır, məktəblər, xəstəxanalar, idman kompleksləri, kənd və xidmət mərkəzləri inşa edilir, yaşayış evləri yenidən tikilir, qaz, elektrik və su təchizatı yaxşılaşdırılır. Bu diyarın parlaq gələcəyi naminə görülən işlər bizim bu gün mahiyyətini dərk edə bilməyəcəyimiz qədər böyükdür”.

Məqalədə o da qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası daxili bazarda ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatını ödəməklə yanaşı, özünün ixrac potensialını gündən-günə artırır. Enerji və ərzaq təhlükəsizliyi problemini həll etməklə enerji idxal edən regiondan indi enerji ixrac edən regiona çevrilib və muxtar respublika ərazisi 100 faiz qazla təmin edilib. Prezident cənab İlham Əliyev bu istiqamətdə görülən işləri yüksək qiymətləndirərək deyib: ***“Bu gün Naxçıvan özünü təkcə enerji ilə təmin etmir, hətta onu ixrac edir. Ən vacibi isə, Naxçıvan özünün daxili tələbatını 100 faiz bərpa edilən enerji mənbələri hesabına təmin edir. Mən deyə bilərəm ki, bu dünyada görünən nadir haldır”.***

Məqalədə, həmçinin Naxçıvanda son illər kənd təsərrüfatı və sənaye məhsulu istehsalı sahəsində də əldə edilən inkişaf və nailiyyətlərə toxunulur və fermerlərə göstərilən diqqət və qayğı önə çəkilir. Son illər həyata keçirilən islahatların, tikilib istifadəyə verilən, müasir standartlara cavab verən yeni məktəb binalarının, xidmət sahələrinin və yolların əhalinin həyat şəraitini yaxşılaşdırmaqla bərabər, kəndlə şəhər arasındakı fərqi aradan qaldırdığı, şəhərdə inşa edilən məktəb binaları ilə ucqar dağ kəndlərindəki məktəb binaları arasında heç bir fərqin olmadığı göstərilir.

Müəllif istənilən diyarın inkişafının təhsilli insanlardan asılı olduğu və Naxçıvanda bu sahəyə, xüsusilə savadlı mütəxəssislərin hazırlanmasına diqqət yetirildiyini, təhsilin inkişaf etdirilməsinin qarşıya qoyulan əsas məqsədlərdən biri olduğunu vurğulayır. Son 23 il ərzində muxtar respublikada 200-dən artıq təhsil müəssisəsinin tikilib istifadəyə verildiyi, o cümlədən yenidən qurulduğu diqqətə çatdırılır. Məqalədə, həmçinin səhiyyə sahəsinə diqqətin artırılması və 250 səhiyyə ocağının tikilib-təmir edilməsindən bəhs olunur.

Məqalədə deyilir: “Vətənə sevgi, doğma torpağa bağlılıq, tələbkarlıq və iradə, həmçinin muxtar respublika rəhbərinin böyük yaradıcı enerjisi hər kəsə nümunədir. Bu nümunədən ilhamlanan böyük vətənpərvərlər ordusu, yaradıcı və konstruktiv gənclər böyüyür. Bu gənclər Naxçıvana yalnız daha böyük tərəqqi gətirmək amalı ilə deyil, hətta Naxçıvandan zorla qoparılan, işğal olunmuş tarixi ərazilərini bərpa etmək arzusu ilə də yaşayır”.

**“Şərq qapısı”**

## Ekoloji tədbirlər davam etdirilir

*Muxtar respublikada təbii sərvətlərdən səmərəli istifadənin tənzimlənməsi, flora və fauna ehtiyatlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər yanvar ayında da davam etdirilmişdir. Qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 7 yoxlama-reyd keçirilmişdir.*

Heyvanat aləminin qış fəslində qidaya olan tələbatının ödənilməsi məqsədilə Şahbuz Dövlət Təbiət Qoruğu və Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı ərazilərində biotexniki tədbirlər həyata keçirilmiş, 2000 kiloqram daşduz, 500 kiloqramdan çox buğda, arpa və meyvə-tərəvəz məhsulları ərazilərə səpilmişdir. Həmçinin ötən dövrdə əlverişli iqlim şəraiti olan ərazilərdə yabanı ağac və kol bitkilərinin toxumlarının yığılması və tədarükü davam etdirilmiş, 300 kiloqramdan çox həmərsin, yemişan, badamça, palıd toxumları yığılmışdır.

Xüsusi mühafizə olunan təbiət ərazilərində, qoruq, milli park və yasaqlıqlarda mühafizə tədbirlərinə diqqət artırılmış, əsas miqrasiya dəhlizləri olan, köçəri quşların məskunlaşdığı sututarların ərazisində, Arazboyu ərazilərdə mövcud durumun qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə aidiyyəti dövlət qurumları ilə birlikdə monitorinqlər aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## *“Poeziyamızın fatehi”* bədii qiraət müsabiqəsi keçirilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin baş mütəxəssisi Arzu Qasımov açaraq bildirib ki, bu il Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunur, 2019-cu il ölkəmizdə “Nəsimi ili” elan edilib. Belə bir tarixi ildə görkəmli şairin yubileyi münasibətilə keçirilən “Nəsimi həftəsi” də ölməz sənətkarın həyat və yaradıcılığının, ideallarının muxtar respublika gənclərinə tanıdılması və təbliğ edilməsinə geniş imkanlar açır.

Tədbirdə çıxış edən şairlər Əbülfəz Ülvi, Elxan Məmmədov və Ələsgər Nehrəmli bildiriblər ki, bədii dilin sadəliyi, aydınlığı və xəlqiliyi etibarilə İmadəddin Nəsimi lirikası sələflərindən və xələflərindən fərqlənir. Onun dərinmənalı şeirləri Azərbaycan şeir dilinin zənginliyini, sadəlik və aydınlığını, geniş imkanlara malik olduğunu nümayiş etdirir. Nəsimi öz ideyalarını, hürufi fikirlərini xalqa çatdırmaq üçün sadə və anlaşıqlı dildə yazmağa üstünlük verib. Onun XIV-XV əsrlərdə yazılmış elə şeirləri vardır ki, həmin poetik nümunələri dilin saflığı baxımından xalq dilinin poeziyada hakim mövqeyə çatdığı XVIII əsr lirikası örnəkləri ilə müqayisə etmək olar.

Qeyd olunub ki, bu müsabiqənin keçirilməsi yeni nəsillərin dönməz məslək və əqidə nümayiş etdirən qüdrətli sənətkar nümunəsində tərbiyə edilib Azərbaycançılıq ruhunda formalaşmasına göstərilən qayğı kimi qiymətləndirilməlidir. Çıxış edənlər müsabiqə iştirakçılarına uğurlar arzulayıblar.

Sonra müsabiqəyə start verilib, gənclər Nəsimi yaradıcılığına dair müxtəlif şeirlər səsləndiriblər.

20 gəncin iştirak etdiyi müsabiqədə gənclərin bacarığı münsiflər heyəti tərəfindən qiymətləndirilib. Yekun rəyə əsasən “Hardasan” şeiri ilə Qızbəsti Quliyeva I, “İstəmə” şeiri ilə Gülay Tahirli II, Aytac Əliyeva isə yenə də “Hardasan” şeiri ilə III yerin qalibi adına, digər üç yerin sahibləri isə həvəsləndirici mükafatlara layiq görülüblər.

Qeyd edək ki, qaliblər fevralın 16-da “Nəsimi həftəsi” çərçivəsində təşkil olunacaq “Nəsimi kəlamının işığında” ədəbi-bədii gecədə mükafatlandırılacaqlar.

**✍ Gülcamal TAHİROVA**

## Kəskin virus infeksiyalarına yoluxma hallarının qarşısı alınır

Muxtar respublika ərazisində kəskin respirator virus infeksiyası ilə bağlı təhlükəli hala rast gəlinməsə də, hava şəraitinin qeyri-sabit keçməsi zəruri qabaqlayıcı profilaktik tədbirlərin gücləndirilməsini tələb edir. Muxtar respublikanın Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq ictimai yerlərdə – xüsusən məktəb və bağçalarda kəskin respirator infeksion xəstəliklərinin profilaktikası məqsədilə dezinfeksiya işləri aparır. Həmin tədbirlər Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları tərəfindən həyata keçirilir.

Cari həftə ərzində Naxçıvan şəhər dəmiryol və avtovağzallarında, topdan və pərakəndə satış məntəqələrində dezinfeksiya tədbirləri başa çatıb. Rayonlarda, əsas etibarilə, siniflərdə, idman zallarında, qarderoblarda, bufet və yeməkxanalarda, dəhlizlərdə, sanitar qovşaqlarında və digər yerlərdə dezinfeksiya işləri təşkil edilib. Tədbirin gedişində tibb işçiləri tərəfindən məktəb və məktəbəqədər uşaq müəssisələrinin girişində tibbi müşahidə aparılır. Kəskin respirator virus infeksiyası xəstəliyinə şübhəli hal aşkar olunduqda ambulator müalicəyə göndərilir. Xəstəlik halları müşahidə edilmiş uşaqlar haqqında isə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsi ilə əlaqə saxlanılır. Bununla yanaşı, məktəb kollektivi və şagirdlər arasında səhiyyə maarifi işi aparılır.

Dezinfeksiya tədbirləri mövsüm ərzində davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## *“Əlincəqala”* Tarix-Mədəniyyət Muzeyinə 33 eksponat təqdim olunub

***Culfa rayonunun Kırna kənd sakini Sona Əsgərova, Milax kənd sakini Elman Hacıyev, Camaldın kənd sakini Tünzalə Məmmədova, Ərəfsə kənd sakini Aqil Qələndərov tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən küp, mis məişət əşyaları, yun darağı, cəhrə, kirkit, oraq, ütü və digər nümunələrdən ibarət 33 eksponat “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinə təqdim edilib.***



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, muzeylər xalqın milli özünəməxsusluğunu, tarixi keçmişini bu günə daşıyan, milli və mənəvi dəyərləri qoruyan mədəniyyət ocaqlarıdır.

Qeyd olunub ki, Naxçıvanda tarix-mədəniyyət abidələrinin qorunması, onların bərpası və konservasiyası son illər ərzində geniş vüsət alıb, tariximizin və mədəniyyətimizin saxlanc yeri olan yeni-yeni muzeylər istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib. Həmçinin tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin araşdırılması, qorunması və gələcək nəsillərə çatdırılması da diqqət mərkəzində saxlanılır.

Nazir diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Muxtar respublikanın muzeylərində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır.

Vurğulanıb ki, son illər ərzində muzeyləri ziyarət edənlərin də sayı əhəmiyyətli dərəcədə artıb. Ötən il muxtar respublikanın muzeylərini 592 min 683 nəfər tamaşaçı ziyarət edib ki, onlardan 178 min 469 nəfəri əcnəbi vətəndaşdır.

Bildirilib ki, muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzey əməkdaşları və muxtar respublika vətəndaşları yaxından iştirak edirlər. Ötən il muxtar respublika muzeylərinə 1564, keçən ay isə 143 eksponat daxil olub. 2018-ci ildə, ümumilikdə, 8 eksponat təqdimatı keçirilib ki, bu təqdimatlarda da xalqımızın tarixini özündə yaşadan maddi mədəniyyət nümunələrini muzeylərə könüllü şəkildə təqdim edən vətəndaşlar yaxından iştirak ediblər. Sevindirici haldır ki, bu aksiyaya artıq yetişməkdə olan gənc nəsil – məktəblilər də qoşulub. Ötən ay Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən eksponat təqdimatı rayonun Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə olub. Bu gün “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyində keçirilən tədbir görülən işlərin nəticəsi kimi qiymətləndirilməlidir. Muzeyə təqdim olunan 33 yeni eksponat muzeyin fondunun və ekspozisiyasının zənginləşməsinə şərait yaradacaqdır.

Natəvan Qədimova çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mədəniyyət işçiləri adından dərin minnətdarlığını bildirib.

Rayonun Kırna kənd sakini Sona Əsgərova, Milax kənd sakini Elman Hacıyev çıxışlarında qeyd ediblər ki, belə tədbirlər maddi-mədəni irsimizin qorunması baxımından əhəmiyyətlidir. Çünki yeni eksponatların muzeyə verilməsi xalqımıza məxsus tarixin və mədəni sərvətlərin yaşadılması, gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

Qeyd edək ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən yaradılmışdır. Muzey 2016-cı ildən fəaliyyət göstərir. Hazırda burada qədim tariximiz və mədəniyyətimizlə bağlı 256 eksponat mühafizə olunur.

**Əli RZAYEV**

*Muxtar respublikada uşaqların qanunla müəyyən olunmuş hüquq və mənafelərinin müdafiəsi, sağlamlıqlarının qorunması, təhsil alaraq layiqli vətəndaş kimi formalaşması, asudə vaxtlarının səmərəli təşkil olunması 2018-ci ildə də diqqət mərkəzində saxlanılmış, bu sahədə ardıcıl tədbirlər görülmüşdür. Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 10 uşaq ötən il qəyyumluq və himayəyə, 11 uşaq övladlığa verilmişdir. Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanları məhdud, şəhid və aztəminatlı ailələrdən olan 720 uşağa isə bayram günlərində hədiyyə və sovqatlar verilmiş, 15 sentyabr – Bilik Günü ilə əlaqədar bu kateqoriyadan olan 394 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunmuşdur.*

# Uşaq hüquqlarının qorunması diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəzarətdə saxlanılmış, sağlamlıq imkanları məhdud uşaqlar məktəbəqədər, ümumtəhsil, peşə və məktəbdənkənar təhsil müəssisələrinə cəlb edilmişlər. Hazırda ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 963, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 8, Distant Tədris Mərkəzində 22 uşaq təhsil alır. 2018-2019-cu tədris ilində 42 uşaq məktəbəqədər təhsil müəssisələrində, 10 uşaq Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində, 9 uşaq ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarında, nitq qüsuru olan 149 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrində tədrisə cəlb edilmişdir.





Cari tədris ilində 68 sağlamlıq imkanları məhdud uşaq ümumtəhsil müəssisələrinin birinci siniflərinə, 1 uşaq distant tədrisin birinci sinfinə, 1 uşaq isə Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbə, 56 uşaq şahmat məktəblərinə, 111 uşaq məktəbdənkənar müəssisələrin dərnəklərinə, 90 uşaq isə idman məktəblərinə cəlb edilmişdir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxanaların zənginləşdirilməsi məqsədilə il ərzində audiokitabxana fonduna 63 yeni audiokitab əlavə edilmişdir. Hazırda audiokitabxana fondunda 1386, elektron kitabxana fondunda 773, brayl kitabxana fondunda isə 981 kitab mövcuddur.

Sağlamlıq imkanları məhdud uşaqlar peşə təhsilindən də kənarda qalmamışdır. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan şagirdlərə peşəyönümlü məşğələlər keçirilmiş, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. 2018-2019-cu tədris ilinin əvvəlində Naxçıvan Musiqi Kollecinə 3, Naxçıvan Dövlət Texniki Kollecinə 5, Naxçıvan Tibb Kollecinə 4, ali təhsil müəssisələrinə isə müvafiq kateqoriyalı 14 uşaq qəbul olunmuşdur. Bu kateqoriyadan olan uşaqların tibbi reabilitasiyası da diqqətdə saxlanılmışdır. Belə ki, 2018-ci ildə Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 365 uşaq müalicə almış, 77 uşağa protez-ortopediya xidmətləri göstərilmiş, 125 uşağa texniki reabilitasiya vasitələri verilmiş, 18 uşağın ölkə daxilində müalicəsi aparılmış, 4 uşağa isə sanatoriya və müalicə pansionatlarına göndərişlər verilmişdir. Sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində 74 monitorinq aparılmış, 3 məktəbdə maarifləndirici görüş keçirilmişdir.

2018-ci il ərzində muxtar respublikanın aid dövlət orqanları tərəfindən əlamətdar günlərdə uşaqlar üçün bayram tədbirləri və yaradıcılıq müsabiqələri, o cümlədən şeir, inşa yazı, rəsm, əl işləri müsabiqələri keçirilmişdir. Müsabiqələrdə 3668 uşaq iştirak etmiş, qaliblərə və iştirakçılara diplom və hədiyyə, bayram tədbirlərində isə bayram sovqatı verilmişdir. Uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə aid dövlət orqanları tərəfindən Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmişdir. Belə ki, 48 sağlamlıq imkanı məhdud, 31 aztəminatlı, 11 valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, 1 qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar olmaqla, ümumilikdə, 420 uşağın istirahəti təmin edilmişdir.

Yetkinlik yaşına çatmayanlarla bağlı müxtəlif istiqamətlərdə, o cümlədən yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması, hüquqlarının və qanuni mənafelərinin qorunması, maarifləndirmə və təbliğat işinin aparılması məqsədilə 694 reyd yoxlaması keçirilmiş, 818 dəfə müxtəlif mövzularda görüşlər təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən 20 uşaq müəssisəsində dövri monitorinq keçirilmişdir. Məqsəd həmin müəssisələrdə uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının qarşısının alınmasıdır. Monitorinqlərin nəticələri, o cümlədən aşkar edilmiş nöqsanlar ekspert qrupunun üzvləri tərəfindən aktlaşdırılmış və nöqsanların aradan qaldırılması ilə bağlı aidiyyəti təşkilatlara aktın surəti göndərilmişdir. Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 2018-ci ildə 5640 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.



Uşaq əhalisinin sağlamlığının qorunması, sağlamlıq tədbirlərinin yaxşılaşdırılması və uşaqlara müasir tələblərə uyğun tibbi xidmətin göstərilməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanılmışdır. 2018-ci ildə ixtisaslı həkim briqadaları tərəfindən pediatr olmayan və yaxud sərhəd zonalarında yerləşən ucqar dağ kəndlərində 12 min 359 uşaq müayinə olunmuş, ehtiyacı olanlara tibbi xidmət göstərilmişdir. Uşaqların icbari dispanserizasiyası zamanı 21 min 956 uşaq müayinə olunmuş, 278 uşaq müxtəlif xəstəliklərə görə dispanser qeydiyyatına alınmışdır. Bununla yanaşı, elektron sağlamlıq kartlarına keçid işi də yaxşılaşdırılmış və 1457 elektron kart alınıb valideynlərə paylanmışdır.

Son illər əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı da əsas rol oynamışdır. Belə ki, ötən il ərzində 5520 uşaq doğulmuş və muxtar respublikada uşaqların sayı 163 min 281 olmuşdur. Bu da 2017-ci illə müqayisədə 1168 uşaq çoxdur. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 49 min 224 şagird təhsil alır ki, bunlardan da 23 min 523-ü qızlardır. Tədris ilində ümumtəhsil məktəblərinin I sinfində tədrisə 2429-u qız olmaqla, 5023 şagird cəlb olunmuşdur. Ötən il ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1781-i ali, 615-i orta ixtisas təhsili müəssisələrinə, Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 208-i isə müxtəlif ali hərbi məktəblərə daxil olmuş, ali məktəblərə qəbul olunanların 331-i 500-700 arası bal toplamışdır ki, bunlardan da 190-ı qızlardır. 2017-2018-ci tədris ilində məktəbi bitirən tam orta təhsil bazası üzrə məzunlardan 13-ü "Qızıl", 11-i "Gümüş" medala, 151-i isə fərqlənmə attestatına layiq görülmüşdür. Medallara layiq görülmüş məzunlar onlara göstərilən etimadı doğrultmuş, qəbul imtahanlarında 6 nəfər 600-650, 18 nəfər 650-700 arası bal toplamışdır. Onlardan 6-sı Prezident təqaüdünə layiq görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" 2015-ci il 14 mart tarixli Sərəncamına uyğun olaraq elmi dərəcəli müəllimlər tərəfindən 2018-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərində 1592 saat nümunəvi dərs tədris olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən muxtar respublikanın ümumtəhsil məktəblərində 46 interaktiv dərs keçilmiş, 600-dən çox elektron lövhədə şagirdlərə müxtəlif fənlər tədris edilmişdir.

Muxtar respublikada uşaq-gənclər idmanının təşkili, inkişafı, bədən tərbiyəsi və idman vasitəsilə uşaqların sağlamlığının qorunması, möhkəmləndirilməsi və asudə vaxtlarının səmərəli təşkili də diqqət mərkəzində dayanmışdır. Belə ki, uşaqlar arasında birincilik, turnir, yoldaşlıq görüşü, çempionat, idman yarışı, festival, olimpiada keçirilmişdir. 5850-dən artıq uşaq keçirilən idman oyunlarında, 110 uşaq idman sahəsindəki açıq dərsdə, 1484 uşaq isə intellektual oyunlarda iştirak etmişdir. Bu gün muxtar respublikada 27 min 399 uşaq idmanla məşğul olur ki, bunlardan da 6002-si qızlardır. İdmanla məşğul olan uşaqlar istər muxtar respublikada, istərsə də muxtar respublikadan kənarda keçirilən idman yarışlarında yüksək nailiyyətlər əldə etmiş, Azərbaycan və Avropa birinciliklərində, Azərbaycan və dünya çempionatlarında, beynəlxalq turnir yarışlarında və beynəlxalq şahmat festivallarında 30-u birinci yer, 18-i ikinci yer, 25-i üçüncü yer tutmuşdur.

2018-2019-cu tədris ilində muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müxtəlif ixtisaslar üzrə 990 şagird qəbul olunmuşdur. Muxtar respublikanın ixtisaslı müəllimləri tərəfindən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində müəllim və şagirdlərin hazırlıq səviyyəsinin artırılması məqsədilə müxtəlif ixtisaslar üzrə 18 ustad dərsi keçilmişdir.

Muxtar respublikanın mədəni-kütləvi tədbirlərində uşaq və gənclərdən ibarət yaradıcılıq qrupları musiqi nömrələri ilə çıxış etmiş, uşaqların ifasında 80-dən artıq konsert proqramı təşkil olunmuşdur. Naxçıvan şəhərində fəaliyyət göstərən bağçalarda və tam orta məktəblərin ibtidai siniflərində kitaba marağın artırılması məqsədilə "Nağıl günləri" keçirilmişdir. Bundan əlavə, bütün kateqoriyadan olan uşaqlara 157 tamaşa, 50-dən artıq bədii və cizgi filmləri göstərilmiş, tətil günlərində uşaqların muzeylərə ekskursiyaları təşkil edilmişdir.

*2019-cu ildə də muxtar respublikada uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması istiqamətində fəaliyyət gücləndiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin***
***mətbuat xidməti***

## İdmançıların nailiyyətləri artır

Yanvar ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən gənclər və idman sahəsində tədbirlər davam etdirilmişdir. Gənclərdə vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi məqsədilə Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbələrinin hazırladığı vətənpərvərlik mövzusunda tamaşa nümayiş etdirilmiş, gənclərin Xatirə Muzeyinə ekskursiyası təşkil olunmuş, Naxçıvan şəhər 3 nömrəli uşaq bağçasında məktəbəqədər hazırlıq qruplarının 5-6 yaşlı uşaqları arasında "Ağıllı uşaq" əyləncəli intellektual oyunu, gənc dövlət qulluqçuları arasında fərdi "Xəmsə" intellektual oyunu, gənclərdə ətraf mühitə sevgi və qayğı hisslərinin yüksəldilməsi məqsədilə "Bir ovuc sevgi" devizi altında tədbir keçirilmişdir.

Naxçıvan muxtar respublikasında fəaliyyət göstərən idman federasiyaları tərəfindən 2018-ci ildə görülmüş işlər və 2019-cu ildə qarşıda duran vəzifələr mövzusunda yığıncaqlar keçirilmiş, federasiyaların idmançı və məşqçi-müəllimlərinin muxtar respublikada fəaliyyət göstərən muzeylərə gəzintiləri təşkil olunmuşdur. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər arasında boks üzrə, kiçikyaşlı yeniyetmələr arasında cüdo üzrə Naxçıvan şəhər açıq birincilikləri, Sədərək və Culfa rayon komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü təşkil olunmuş, Futbol Federasiyasının idmançıları tibbi müayinədən keçirilmişlər. Həmçinin Şahmat Federasiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Şərur rayonunda fəaliyyət göstərən Şahmat Məktəbində müəllimlər, şahmatçılar və valideynlərlə görüş təşkil olunmuş, Naxçıvan Şahmat Mərkəzində təsnifat turniri keçirilmişdir.

Yanvar ayında muxtar respublika idmançıları ölkə birinciliklərində 28, beynəlxalq turnirlərdə 15 medal olmaqla, 43 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

## Əsgərlər arasında intellektual oyun keçirilib

*Culfa sərhəd komendantlığının əsgərləri arasında "Vətəni tanı" intellektual oyunu keçirilib.*

İştirakçılar pazl şəklində olan Azərbaycanın xəritəsində müxtəlif rənglərdə göstərilən şəhər və rayonları müvafiq olaraq xəritə üzərində öz yerinə yerləşdirməklə vahid Azərbaycan xəritəsini tamamlayıblar. Sonda xəritəni daha tez tamamlayan əsgər Muxtar Balaqadaşov qalib adını qazanıb. Əsgər Əlimurad Qasımzadə ikinci, əsgər Samir Hümbətov üçüncü olub. Kiçik çavuş Şərif Nəsibov və əsgər Cəfər Əhmədov isə fərqləndiklərinə görə Gənclər və İdman Nazirliyinin diplomları, fəxri fərmanları və hədiyyələri ilə mükafatlandırılıblar.

Qeyd edək ki, intellektual oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonu, Dəmirçi kənd sakini Abbasov Arif Əli oğlunun adına olan JN-1003$^{A}$ inventar nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Didivar kəndində yaşamış Dünyamalıyeva Sona Hüseyn qızının adına olan 246$^{A}$ inventar nömrəli, 10311058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 134